AZƏRBAYCAN BANKLAR ASSOSİASİYASI

# TƏDİYƏ BALANSI - 2017 /I Yarımil/

**Bakı 2017**

# Mündəricat

**Cari əməliyyatlar hesabı** ........................................................................ **3**

**Maliyyə hərəkəti hesabı** .......................................................................... **5**

**Ehtiyat aktivlərin dəyişməsi** .................................................................. **7**

*Diaqram 1. Neft qiyməti və cari əməliyyatlar balansı* .............................. 3

*Diaqram 2. Ehtiyat aktivlərin dəyişməsi* .................................................. 7

*Cədvəl 1. Cari əməliyyatlar balansının dinamikası* .................................. 4

*Cədvəl 2. Maliyyə hərəkəti balansının dinamikası* ................................... 6

# 1. Cari əməliyyatlar hesabı

**1.1. Neft qiymətinin yüksəlməsi ilə ona sıx bağlı olan Cari Əməliyyatlar Balansında profisit bərpa olunmağa başlamışdır**. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə neft qiymətləri ≈ 32% artaraq 2017-ci ilin ilk yarımilində 51.2 USD/barrel təşkil etmişdir ki, nəticədə qeyd olunan dövrdə ötən ildə müşahidə edilmiş olan -801.9 mln. USD həcmində kəsir +785.6 mln. USD həcmində profisitlə əvəzlənmişdir. Başqa ifadə ilə desək, dövr ərzində cari hesabda ≈ 1.6 mlrd. USD həcmində nisbi yaxşılaşma qeydə alınmışdır.

**Diaqram 1.** *Neft qiyməti və Cari əməliyyatlar balansı*




*Mənbə: Azərbaycan Mərkəzi Bankı və Beynəlxalq Valyuta Fondunun məlumatları əsasında tərtib edilmişdir.*

**1.2. Cari hesab profisitinin formalaşmasında həlledici rol oynayan neft-qaz sektoru üzrə cari hesab profisiti əvvəlki ilin eyni dövrü[1] ilə müqayisədə 47% (952.7 mln. USD) artaraq 2979.3 mln.USD təşkil etmişdir.** Neft-qaz sektorunun xarici ticarət üzrə profisiti 31.2% artaraq 5865.2 mln. USD-ə çatmışdır. Ancaq buna paralel olaraq sektor üzrə xidmətlər balansının kəsrində 34.5% (-473.4 mln. USD

[1] Başqa qeyd olmadığı halda hesabatda bütün müqayisələr əvvəlki ilin eyni dövrü (2016-cı ilin I yarımili) ilə aparılmışdır.

həcmində) artım müşahidə edilmiş, bu bölmə üzrə kəsir -1845.5 mln. USD-ə çatmışdır. Neft-qaz sektoru üzrə ilkin gəlirlər balansında müşahidə edilən kəsir isə 2.8% kiçilərək -1040.4 mln. USD təşkil etmişdir.

**1.3. Qeyri-neft sektoru üzrə cari əməliyyatlar hesabının kəsri 22.4% kiçilərək -2193.7 mln. USD təşkil etmişdir.** Dövr ərzində sektor üzrə bütün kanallar üzrə (mal və xidmətlərin ixracı, həmçinin ilkin gəlirlər üzrə) daxilolmaların artması (≈ 20%), xaricolmaların isə dəyişməz qalması nəticəsində cari hesab kəsri kiçilməkdə davam etmişdir ki, bu daxili valyuta bazarının stabilliyi baxımından xüsusi əhəmiyyət daşıyır.

**Cədvəl 1.** *Cari əməliyyatlar balansının dinamikası*

| | ***mln.USD*** | | |
|---|---|---|---|
| | **2016 I yarımil** | **2017 I yarımil** | **Əvvəlki ilin eyni dövrü ilə müqayisədə dəyişmə** |
| **Cari Əməliyyatlar Hesabı üzrə Balansı** | -801.9 | 785.6 | 1587.5 |
| Neft-qaz sektoru | 2026.5 | 2979.3 | 952.7 |
| Qeyri-neft sektoru | -2828.4 | -2193.7 | 634.7 |
| ***Xarici Ticarət Balansı*** | 1933.6 | 3479.1 | 1545.5 |
| Neft-qaz sektoru | 4468.7 | 5865.2 | 1396.5 |
| Qeyri-neft sektoru | -2535.1 | -2386.1 | 149.0 |
| ***Xidmətlər Balansı*** | -1755.9 | -2018.8 | -262.9 |
| Neft-qaz sektoru | -1372.1 | -1845.5 | -473.4 |
| Qeyri-neft sektoru | -383.8 | -173.3 | 210.5 |
| Nəqliyyat | 132.0 | -25.5 | -157.5 |
| Turizm | -32.0 | 186.3 | 218.3 |
| Rabitə | -12.4 | -11.2 | 1.2 |
| Tikinti | -1521.3 | -1455.4 | 65.9 |
| Maliyyə xidmətləri | 1.5 | -20.6 | -22.0 |
| Hökumət xidmətləri | -44.2 | -26.1 | 18.1 |
| Digər xidmətlər | -279.4 | -666.3 | -386.8 |
| ***İlkin gəlirlər Balansı*** | -1002.8 | -967.5 | 35.3 |
| Neft-qaz sektoru | -1070.0 | -1040.4 | 29.7 |
| Qeyri-neft sektoru | 67.3 | 72.9 | 5.6 |
| ***Təkrar gəlirlər Balansı*** | 23.1 | 292.7 | 269.6 |

Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatları əsasında tərtib edilmişdir.

## 2. Maliyyə hərəkəti hesabı

**2.1. 2017-ci ilin I yarımilində ölkədən maliyyə axınları əhəmiyyətli dərəcədə azalmış, maliyyə hərəkəti hesabında əvvəlki ilin eyni dövründə müşahidə edilən -2180.9 mln. USD həcmindəki kəsir 397.8 mln.USD-lik profisitlə əvəz olunmuşdur.** Maliyyə hərəkəti hesabının cari mənzərəsi, əsasən qeyri-neft sektoru üzrə maliyyə hərəkəti hesabına formalaşmışdır. Bu dövrdə qeyri-neft sektoru üzrə kəsir -3046.5 mln.USD-dən -719.6 mln.USD-yə qədər azalmışdır ki, bu daxili valyuta bazarının stabilləşməsində əhəmiyyətli rol oynayan digər vacib elementdir. Neft-qaz sektoru üzrə maliyyə hərəkəti hesabında isə əvvəlki ilin eyni dövrünə nəzərən 29% çox, 1117.3 mln.USD həcmində profisit formalaşmışdır.

**2.2. Qeyri-neft sektoruna birbaşa xarici investisiyalar artmışdır.** Dövr ərzində sektora 462.4 mln.USD birbaşa xarici investisiya daxil olmuş və 237.8 mln.USD birbaşa investisiya Azərbaycandan digər ölkələrə istiqamətlənmişdir. Nəticədə sektorun birbaşa investisiyalar balansında 224.6 mln.USD profisit əmələ gəlmişdir ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə ≈ 61% çoxdur.

**2.3. Əsasən neft-qaz sektoruna yönəldilən portfel investisiyalar hesabına maliyyə hərəkəti hesabının eyni adlı bölməsində 975.3 mln.USD profisit formalaşmışdır.** Bu əvvəlki ilin eyni dövrü ilə müqayisədə 403.8 mln.USD (70.7%) çoxdur. Dövr ərzində qeyri-neft sektoruna 9.2 mln. USD portfel investisiyası daxil olmuş, sektorun xarici aktivlərində isə -28.6 mln.USD azalma baş vermişdir.

**2.4. Digər investisiyalar[2] üzrə kəsir əhəmiyyətli həcmdə kiçilmişdir.** Bu bölmə üzrə kəsir –1230.9 mln.USD təşkil etmişdir ki, bu əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2177.9 mln.USD azdır. Dövr ərzində bu kanal ilə ölkədən 2337.9 mln.USD vəsait xaric olunmuş, 1107 mln.USD daxilolma baş vermişdir.

[2] Buraya depozitlər və nağd valyuta, kredit və ssudalar, ticarət kreditləri və avanslar üzrə maliyyə hərəkəti daxildir.

**Cədvəl 2.** *Maliyyə hərəkəti balansının dinamikası*

| | mln.USD | | |
|---|---|---|---|
| | 2016 I Yarımil | 2017 I Yarımil | Əvvəlki ilin eyni dövrü ilə müqayisədə dəyişmə |
| **Maliyyə hesabı Balansı** | -2180.9 | 397.8 | 2578.7 |
| Neft-qaz sektoru | 865.6 | 1117.3 | 251.7 |
| Qeyri-neft sektoru | -3046.5 | -719.6 | 2327.0 |
| ***Birbaşa investisiyalar üzrə Balans*** | 655.8 | 648.7 | -7.1 |
| Neft-qaz sektoru | 516.1 | 424.1 | -92.1 |
| Qeyri-neft sektoru | 139.6 | 224.6 | 85.0 |
| ***Portfel investisiyaları üzrə Balans*** | 571.5 | 975.3 | 403.8 |
| ***Digər investisiyalar üzrə Balans*** | -3408.9 | -1230.9 | 2177.9 |
| Neft-qaz sektoru | -239.7 | -245.6 | -5.9 |
| Qeyri-neft sektoru | -3169.2 | -985.4 | 2183.8 |

Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatları əsasında tərtib edilmişdir.

## 3. Ehtiyat aktivlərin dəyişməsi

**3.1. Neft qiymətinin artması ilə cari hesabın nisbi yaxşılaşması və ölkədən maliyyə axınlarının azalması ölkənin ehtiyat aktivlərinin artmasına şərait yaratmışdır.** 2017-ci ilin I yarımilində ölkənin ehtiyat aktivlərində 1430.5 mln.USD artım müşahidə edilmişdir. Müqayisə üçün qeyd edək ki, ötən ilin eyni dövründə ölkədən maliyyə axınlarının nəticəsi olaraq ehtiyat aktivlər 1252.7 mln. USD azalmışdır.

**Diaqram 2.** Ehtiyat aktivlərin dəyişməsi *(mln.USD)*




Ümumilikdə, ehtiyat aktivlərin həcmində 2014-cü ilin sonuncu rübündən başlayaraq müşahidə edilən neqtiv meyil, ötən ilin II rübündən etibarən müsbət trendlə əvəz olunmuş, xüsusilə 2016-cı ilin sonuncu rübündə və cari ilin ilk yarımilində ehtiyatların artımı daha nəzərəçarpan olmuşdur – son üç rübdə ehtiyatlarda cəmi ≈ 2.1 mlrd.USD-ə yaxın artım müşahidə edilmişdir.